ədalət.- 2021.- 22 aprel.- S.5.

# MƏMMƏD ARAZ – KƏŞF OLUNMAMIŞ POEZİYA PLANETİNİN PEYĞƏMBƏRİ

(əvvəli qəzetin 17 aprel sayında )

**Sən ulu Tanrının verdiyi əzablı dərdə dözdün, məğrurluğu, mərdliyi, dönməzliyi, cəsarəti öz içində göyərtdin, baş əymədin namərd xəstəliyə, bəzi məmurlara. Yeganə şair idin ki, sənin ilham bulağını heç bir qüvvə bulandıra bilmədi.**

*Dünənimi döşdən asan deyiləm,*
*Dünənimə qəbir qazan deyiləm,*
*Ürəyimsiz kəlmə yazan deyiləm,*
*Nə qədər ki, öz əlimdi yazanım.*

Kimliyindən asılı olmayaraq vüqarlı vicdanın sükanını dəyişmədin.

*Buyruqlara sığışmayan inaddım,*
*Çox qanadlar yorub salan qanaddım,*
*Ulduzlara barmaq silkib, daş atdım,*
*Nizamına baş əymədi nizamım.*

Evində bir zərif qadın nəfəsini və bir də cansız masanı özünə həmdəm saydın. Heç yerdə heç kimə əyilməyən vüqarını "Vətən nəfəsli" saydığın masana əydin. Zərif, titrək əllərinlə qəlbindən sökdüyün mələk duyğularını qələmdən vərəqə yönəltdin.

Cansız masanı canlı saydın, USTAD və ona:

*Biz iki ocaq kimi,*
*Sinə-sinəyə yandıq.*
*Odumuz öpüşəndə,*
*Közümüzə inandıq.*

Hər misranda bir keşməkeşli dünya yaradan sirlərlə dolmuş söz planetinin Daş kitabını hələlik açabilməmişik. Bu dünya şöhrətli, böyük şairin möhtəşəm xəzinəsinin açarını kim tapacaq, məlum deyil.

*Dönən döndü, yenən yendi dönməzliyə,*
*Doğru sözün nərdivanı qalır hələ,*
*Bəy deyiləm, söz hökmündə Atabəyəm,*
*Ər olmağa ər divanın qalır hələ.*

Məmməd Araz Azərbaycanın bütövlüyü uğrunda mübarizənin carçısı kimi meydana atılanlardan biri oldu və:

*Ya Rəbbim, bu dünya sən görən deyil!*
*Bu sədlər, sərhədlər sən hörən deyil.*
*Adını, soyunu dəyiş dünyanın,*
*Odunu, suyunu dəyiş dünyanın,*
*Yolunu, yönünü dəyiş dünyanın,*
*Ya Rəbbim, bu dünya sən quran deyil,*
*Fəzada yerini dəyiş dünyanın!*

- deyə hayqırdı.

M.Araz deyəndə istər-istəməz bütün türk dünyası, vətənpərvərlik, vətənə məhəbbət yada düşür. M.Arazı Vətənsiz, Vətəni isə Məmməd Arazsız düşünmək qeyri-mümkündür və hətta günahdır.

## I hissə

Məmməd Araz deyəndə - Araz axımlı, Araz baxımlı, Araz mətanətli, Araz cəsarətli, Araz şücaətli, Araz dəyanətli, Araz qıfılbəndli, sinəsi mindərdli, Araz özümlü, Araz dözümlü, Araz düzümlü, qaya əzəmətli, dağ vüqarlı bir şair vətəndaşın tunc heykəli qarşımızda canlanır.

M.Araz ona görə çox sevilir ki, onun düz yolu, düz iddiası, düz əqidəsi, pak qələmi olub. Onun nəhəng poeziya aləmi, heç kimi təqlid etməyən gözəl əsərləri, dərin fəlsəfi fikirləri həmişə oxucunu düşündürməyə məcbur edib.



*Həqiqət sözüdür, sözün Allahı,*
*O, qala uçurdu, o, qala qurdu.*
*Gətir xəyalına xətai Şahı:*
*Qılınca hökmran, qələmə quldu.*

Həmişə dərin, bəşəri düşüncələrə dalan, dünyanın taleyi üçün, onun varlığı üçün narahat olan, xalqının keçmişini və gələcəyini düşünən şair bütün dünyada Azərbaycanı qayalar başında bitən solmaz bir çiçəyə bənzədir.

*Azərbaycan - qayalarda bitən bir çiçək,*
*Azərbaycan - çiçəklərin içində qaya,*
*Mənim könlüm bu torpağı vəsf eyləyəcək,*
*Azərbaycan dünyasından baxır dünyaya.*

Məmməd Arazın çox böyük ürək tablosu olub. O bu tabloya Azərbaycan təbiətinin nəyi varsa, hamısını köçürməyi bacarıb. Məmməd Araz yazırdı:

*Ürəkdə ay doğur, Günəş də batır,*
*Göy qopur, ildırım çaxır ürəkdə,*
*Tufan da hayqırır, sükut da yatır,*
*Alov da, gürşad da yağır ürəkdə.*

Şair həmişə həqiqi dostluğu müasir dünyamızda bir tapıntı kimi düşünərdi. Çünki bu vəfasız dünyada xəstələndikdən sonra "dönük" dostların çoxu sınaqdan keçmədi. Şairin yaxın dostu, böyük alim Xudu Məmmədova yazdığı şeirin 3 bəndini xatırlamaq arzusundayam:

*Yenə dağ döşündə dənələndi qar,*
*Yenə zirvələrin həsrətində qal.*
*Sel qopdu, dərəyə düşdü qalmaqal…*
*Bir ocaq başında bir isinməsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

***Haşiyə:*** 50 illik yubileyində, oktyabr ayının ortalarında Məmməd Arazla Sumqayıtda görüş keçirirdik.

Görüşdən öncə bağda çay dəstgahına dəvət etmişdim. Çay süfrəsi arxasında şair ailəsi ilə, Aqil Abbas həyat yoldaşı İradə xanımla, Məmməd İsmayıl, Əjdər Xanbabayev, Flora xanım Kərimova, Sabir Rüstəmxanlı, Məmməd Aslan, Söhrab Tahir, Əşrəf Veysəlli, tanınmış sənətkarlarımız Rafiq Babayev, Mikayıl Mirzə, həkimlərdən Hümbət Nağıyev, Zahid Quliyev və başqa qonaqlar əyləşmişdilər. Qoşa söyüdün altında qoşa süfrə açılmışdı. Ləyaqət xanım iki böyük tort və qonaqlara layiq Ordubad qayğanağı və Arzuman küftəsi bişirmişdi. Məclis qızışmışdı. M.Aslan dedi:

**- Əmi, gəl nərd oynayaq, Cəfər həkimin cibindən.**

Mən tez ciblərimi çevirdim:

**- Baxın, boşdur, - dedim.**

Nərd oyunu başlandı. Araqatan peyda oldu. Sonra mənə söz verdilər. Məmməd Araza hücuma keçdim:

**- Birincisi, sənə 100 il ömür arzulayıram, - dedim, bilirsən, sən bağa gələndə əməlli-başlı yeriyirsən. Təbiətin içində olanda xəstəliyini unudursan. Ya köç gəl bizim bağda qal, ya da götür nişanlını get Şahbuza, cənnət-məkan Nurs kəndinə. İkincisi, Sən xəstə deyilsən, bu titrəyişin də səbəbi bir başqadır. .Fikirləşirəm ki, heç kim bu dünyada əbədi deyil, ölüm də haqdır. Sonunda hər kəs bu dünyadan köç etməlidir. Bilirsən ki, o dünyada "inkir-minkir" səni sorğu-suala tutmağa utanacaq, bununla belə, səni axirətdə imtahan gözləyir. Bax, başda oturacaq Nizami, Füzuli. Onların ətrafında Xətai, Seyid Əzim, H.Cavid, M.Hadi, C.Cabbarlı, M.Ə.Sabir, C.Məmmədquluzadə, M.H.Şəhriyar və digərləri əyləşəcəklər. Səndən imtahan götürəcəklər. Sənin indiki titrəyişin həmin o imtahanın qorxusunun titrəyişidir. Hərdən o imtahan yadına düşəndə əsməyə başlayırsan ki, bəlkə sənə güzəşt edib bir çəlimsiz "üç" yazalar. Hə, necədir, ustad, düz tapmışam?! Bütün məclisə gülüş ələndi…**

***

Bir vaxtlar "Vaxt" qəzetində mənim qısa bir yazım getmişdi Məmməd Araz haqqında. Yazmışdım ki, şairlər bəşəriyyətin ildırım ötürənləridir. Təbiətən, qəlbən azad olmağa məhkum edilmiş dəyərli şairlər özləri istəsələr də, istəməsələr də bəşəriyyətin bütün ağrılarını ürəklərində daşımağa məcburdurlar. Mən özümə qibləgah saydığım, hüzurunda səcdə etdiyim Məmməd Arazın ürək döyüntülərində insan oğlunun əbədi ideallarının əks-sədasını çox eşitmişəm… Çox!

Oğul nəvələri dünyaya gələndə Məmməd qanad axtarırdı uçmağa. "Mənim validolum" adlı şeir yazmışdı nəvəsinə. Tale oğul sarıdan onun üzünə gülmədi. İki qızın arasında əkiz oğlanları dünyaya göz açsa da, zalım fələk ikisini də birdən apardı. Məmmədin misralarını yada salmaq istərdim.

*Uçurub yolumdan əkizlərimi,*
*Ömrümün yoluna tənha çıxmışam.*

Mənim üçün dünya sandığım M.Araz zirvəsi var. Bu zirvəni fəth etmək kimə qismət olsa, o, dünyanın ən xoşbəxt insanı olacaq. Əgər dünya varsa, M.Arazın zirvə əbədiliyini danmaq olmaz. Ömür-gün yoldaşına söykənən şair yazırdı:

*Çox tozanaq atlını təmkin atınla keçdin,*
*Sel boğan dərələri bir mərd qadınla keçdin,*
*Bütün keçilməzliyi, Vətən, adınla keçdin,*
*Haqqın var Məmməd Araz,*
*Haqqın var yaşamağa!*

***Haşiyə:*** Bir gün bağda söhbət əsnasında Məmməddən xahiş etdim ki, qardaş, nə olar mümkünsə bir dram əsəri yaz. Bir anlığa dərin sükuta daldı və köks ötürdü:

**- İncə yerimə toxundun, qardaş. Pyes başımda hazırdı. Ancaq hələ 9-cu sinifdə oxuyarkən dağlarda quzuya getdiyim illər daş üstünə bir söz yazdım ki, yaddan çıxmasın. İndi neçə illərdi o sözü axtarıram, tapa bilmirəm. Təkcə bir kəlmə söz.**

**- Qardaş, - dedim, - məgər o sözü başqa bir sözlə əvəz etmək olmaz?**

**- Yox, - dedi.**

Hər sözün öz çəkisi, hər sözün öz yeri, hər sözün öz məqamı, hər sözün öz hökmü var. Tək o bir kəlmə söz yadıma düşsə bir gecədə əsəri yazıb tamamlaya bilərəm. Sonralar yazılarının birində mənə rast gəldi.

*Sözümün çəkisi çəkimdən ağır,*
*Atmaq da çətindir, dartmaq da çətin!*

**Allahıma şükürlər olsun ki, sözünün qüdrətini az da olsa duya bilmişəm, USTAD.**

**(ardı var)**

**Hacı Cəfər Quliyev,**
**AYB və AJB-nin üzvü,**
**"Şöhrət" ordenli, Ali dərəcəli həkim-cərrah**